# MILITARY POLICY OF THE ISLAMIC REPUBLIC OF IRAN AND THE ARMED FORCES

**Afgan Fatiyev**[1]
**Aladdin Malikov**[2]

**UDC:** 355/359(55):327.5
**LBC:** 68.49(5Irn):66.4
**HoS:** 77
**DOI:** 10.33864/2790-0037.2025.v6.i3.33-45

**Keywords:**

Armed Forces of the Islamic Republic of Iran,
Army of the Islamic Republic of Iran,
Islamic Revolutionary Guard Corps,
Law Enforcement Forces of the Islamic Republic of Iran

## ABSTRACT

The article presents an analysis of the military potential of the Islamic Republic of Iran (IRI) based on foreign sources and information. For this purpose, it examines the constitutional and ideological foundations of the IRI's military policy, the levels of its long-term objectives, the characteristics of the organizational structure of the Armed Forces of the Islamic Republic of Iran, and the principles governing their operations. The article generally examines the role and mission of the Commander-in-Chief and the General Staff in the management process of the Armed Forces of the Islamic Republic of Iran, and provides information about the latter's four organizations. The article examines the structure and function of the General Staff of the Armed Forces of Iran as a balancing institution among the Army of the Islamic Republic of Iran (AJA), the Islamic Revolutionary Guard Corps (IRGC), the Law Enforcement Forces of the Islamic Republic of Iran (FARAJA), and the Ministry of Defense and Armed Forces Logistics (MODAFL).

[1] Lieutenant Colonel,
Head of the Slavic and Eastern Languages Department of the Foreign Language Center of the National Defense University; Baku, Azerbaijan
E-mail: afganfatiyev@gmail.com
https://orcid.org/0009-0002-8642-7592
[2] Doctor of Philosophy in Philosophy, Associate Professor,
Scientific Researcher at "AcademyGate Publishing" (ISNI: 0000000514175052); Baku, Azerbaijan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177

**To cite this article:** Fatiyev, A., & Malikov, A. [2025]. Military Policy of the Islamic Republic of Iran and the Armed Forces. *History of Science journal*, *6*(3), pp.33-45.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.33-45

***Article history:***
*Received: 14.05.2025*
*Accepted: 02.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# İSLAM RESPUBLİKASININ HƏRB SİYASƏTİ VƏ SİLAHLI QÜVVƏLƏRİ

**Əfqan Fətiyev**[1]
**Əlǝddin Məlikov**[2]

**UOT:** 355/359(55):327.5
**KBT:** 68.49(5İrn):66.4
**HoS:** 77
**DOI:** 10.33864/2790-0037.2025.v6.i3.33-45

**Açar sözlər:**

İran İslam Respublikası Silahlı Qüvvələri,
İran İslam Respublikasının ordusu,
İslam İnqilabı Keşikçilər Korpusu,
İran İslam Respublikası İntizam Qüvvələri

## ANNOTASİYA

Məqalədə xarici mənbələr və məlumatlar əsasında İran İslam Respublikasının (İİR) hərbi potensialının təhlili təqdim olunur. Bu məqsədlə İİR-nın hərbi siyasətinin konstitusion və ideoloji əsasları, uzunmüddətli hədəflərinin səviyyələri, İran İslam Respublikası Silahlı Qüvvələrinin təşkilati strukturunun xüsusiyyəti və fəaliyyət prinsipləri nəzərdən keçirilir. Məqalədə İİR Silahlı Qüvvələrinin idarəedilməsi prosesində Ali baş komandan və baş qərargahın rolu və missiyası ümumi şəkildə araşdırılır və sonuncunun dörd təşkilatı haqqında məlumatlar verilir. Məqalədə İran İslam Respublikası Ordusu, İslam İnqilabı Keşikçilər Korpusu, İran İslam Respublikası İntizam Qüvvələri və Müdafiə və silahlı qüvvələrə dəstək strukturu arasında tarazlaşdırıcı təşkilat olan İran Silahlı Qüvvələrinin Baş Qərargahının struktur və roluna toxunulur.

[1] Polkovnik-leytenant,
Milli Müdafiə Universitetində Xarici Dil Mərkəzinin "Slavyan və Şərq dilləri bölməsi"nin rəisi; Bakı, Azərbaycan
E-mail: afganfatiyev@gmail.com
https://orcid.org/0009-0002-8642-7592
[2] fəlsəfə üzrə fəlsəfə doktoru, dosent,
"AcademyGate Publishing"-in elmi tədqiqatçısı (ISNI: 0000000514175052); Bakı, Azərbaycan
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177
**Məqaləyə istinad:** Fətiyev, Ə., & Məlikov, Ə. [2025]. İslam Respublikasının Hərb Siyasəti və Silahlı Qüvvələri. *History of Science jurnalı*, 6(3), səh.33-45.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.33-45

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 14.05.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 16.06.2025*
*Çapa qəbul edilmişdir: 02.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

History of Science
Vol 6, issue 3, serial 21, 2025, pp.33-45

AcademyGate Publishing
p-ISSN 2790-0029; e-ISSN 2790-0037

# ВОЕННАЯ ПОЛИТИКА ИСЛАМСКОЙ РЕСПУБЛИКИ ИРАН И ВООРУЖЕННЫЕ СИЛЫ

**Афган Фатиев**[1]
**Аладдин Маликов**[2]

**УДК:** 355/359(55):327.5
**ББК:** 68.49(5Ира):66.4
**HoS:** 77
**DOI:** 10.33864/2790-0037.2025.v6.i3.33-45

**Ключевые слова:**

Вооруженные силы Исламской Республики Иран, Армия Исламской Республики Иран, Корпус стражей Исламской революции, Силы правопорядка Исламской Республики Иран

## АННОТАЦИЯ

В статье представлен комплексный анализ военного потенциала Исламской Республики Иран (ИРИ) на основе зарубежных источников и информации. С этой целью рассматриваются конституционные и идеологические основы военной политики Исламской Республики Иран, уровни её долгосрочных целей, а также особенности организационной структуры и принципы деятельности Вооружённых Сил Исламской Республики Иран. В статье в обобщённом виде рассматриваются роль и миссия Верховного Главнокомандующего и Генерального штаба в процессе управления Вооружёнными Силами Исламской Республики Иран, а также представляется информация о четырёх структурах, подчинённых последнему. В статье рассматриваются структура и роль Генерального штаба Вооружённых Сил Ирана как уравновешивающего органа между Армией Исламской Республики Иран, Корпусом стражей Исламской революции, Правоохранительными силами Исламской Республики Иран и Министерством обороны и поддержки Вооружённых сил.

[1] Подполковник,
Заведующий кафедрой славянских и восточных языков Центра иностранных языков Национального университета обороны; Баку, Азербайджан
E-mail: afganfatiyev@gmail.com
https://orcid.org/0009-0002-8642-7592
[2] Доктор философии по философии, доцент,
AcademyGate Publishing (ISNI: 0000000514175052); Баку, Азербайджан
E-mail: aladdin.malikov@gmail.com
https://orcid.org/0000-0001-5830-6764
https://isni.org/isni/0000000514199177

**Цитировать статью:** Фатиев, А., & Маликов, А. [2025]. Военная Политика Исламской Республики Иран и Вооруженные Силы. *Журнал History of Science*, *6*(3), с.33-45.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i3.33-45

***История статьи:***
*Статья поступила в редакцию: 14.05.2025*
*Отправлена на доработку: 16.06.2025*
*Принята для печати: 02.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Son onilliklərdə Yaxın və Orta Şərq regionunda baş vermiş tarixi hadisələr müsəlman Şərqinin dünya siyasətində artan əhəmiyyətindən xəbər verir. İslam amili geosiyasətin yeni fenomeni kimi dünya dövlətlərinin əhəmiyyətli bir hissəsinin dövlət siyasətinin və rəsmi ideologiyasının formalaşmasına həlledici təsir göstərir və beynəlxalq məsələlərdə getdikcə daha qabarıq və nüfuzlu rol oynayır. Yaxın və Orta Şərq regionunda hərbi-siyasi proseslərin sürətli inkişafı region ölkələri qarşısında mürəkkəb və məsuliyyətli vəzifələr qoyur.

Bunu da qeyd etmək lazımdır ki, Yaxın və Orta Şərq regionunda əhəmiyyətli geosiyasi və geostrateji mövqeyə malik İran İslam Respublikası son onilliklər ərzində hərbi-siyasi mərkəzlərdən birinə çevrilib. Bu fakt İran İslam Respublikasını regionda güclü orduya malik olmağa sövq edir. Ölkənin milli və dini xüsusiyyətləri İran həyatının müxtəlif sahələrində o cümlədən, silahlı qüvvələrin yaradılması və formalaşmasında da özünü təzahür etdirir. Məqalənin məqsədi İİR-nın hərb siyasətinin xüsusiyyətlərini və silahlı qüvvələrinin struktur elementlərinin qarşılıqlı əlaqəsini təhlil etməkdir. Məqalənin hazırlanmasında struktur-funksional və prosessual-dinamik metodlardan istifadə edilib.

## 2.İran İslam Respublikasının hərb siyasəti

Hər bir ölkədə hərb siyasəti dövlət siyasətinin əsas tərkib hissəsidir. Bu ölkənin milli təhlükəsizliyinin vacib sayılan məqsəd və vəzifələrini ifadə edir. Hərbi siyasət və silahlı qüvvələr ölkənin təhlükəsizliyini təmin etmək və milli maraqlarını qorumaq üçün zəruri olan asas atributlardır.

İranın hərb siyasəti onun "panislamizm" ideologiyasına əsaslanır və onun əsas məqsədi İran İslam Respublikasının himayəsi altında dünyada İslam ümməti yaratmaqdan ibarət olan maraqları ilə müəyyən edilir.

Əsas müddəaları Milli Təhlükəsizlik Doktrinasında əksini tapmış İran İslam Respublikasının hərb siyasəti bu məqsədə nail olmağa xidmət edir. İranın hərb siyasətinin mahiyyəti rəsmi olaraq İran İslam Respublikasının Konstitutsiyasının 11-ci maddəsində öz əksini tapmışdır [Сажин, 1999, s.296].

Bu məqsədin həyata keçirilməsinin mümkünlüyü bilavasitə qlobal xarakter daşıyan ən mühüm vəzifələrin uğurlu həllindən asılıdır. Strateji göstəricilərə əsasən İranın hərb siyasətinin uzunmüddətli hədəflərini üç səviyyəyə ayırmaq olar ki, ölkə rəhbərliyinin əsas səyləri onların həyata keçirilməsinə yönəldilib [Şəkil 1].




**Şəkil 1.**

***Silahlı Qüvvələr*** - döyüş, şəxsi heyət və maddi vəsaitlərin *(silah və hərbi texnika, idarəetmə vasitələri, təminat və əsas hərbi əmlak)* kəmiyyat və keyfiyyət göstəricilərini özündə ehtiva edir.

### 3.İran İslam Respublikasının silahlı qüvvələri

İran İslam Respublikasının silahlı qüvvələri say baxımından yaxın və orta şərqdə ən böyük ordulardan hesab olunur. Buna görə də onlar İraq- İran müharibəsində (1980-1988-ci illərdə) və Suriya Ərəb Respublikasında (2011-2023-cü ilədək) əldə edilmiş döyüş əməliyyatlarının aparılması təcrübəsinə malikdirlər. İran İslam Respublikasının silahlı qüvvələrinin formalaşması İranın ali rəhbərliyinin hərbi-siyasi və strateji məqsədlərinə, eləcə də ölkənin iqtisadi imkanlarına, milli və dini xüsusiyyətlərinə əsaslanır. İran nisbətən qısa müddət ərzində Yaxın və Orta Şərqdə ən güclü silahlı qüvvələrdən birinə çevrilməyə, o cümlədən öz raket və nüvə proqramını yaratmağa nail olub.

İran İslam Respublikası silahlı qüvvələri (*Niruhaye Mosəlləhe Comhuriye Eslamiye İran*), İran İslam Respublikasının müdafiəsi və təhlükəsizliyinə məsul olan qurumlardan hesab olunur.

1979-cu ildə İran İslam inqilabından sonra yaradılan “İran İslam Respublikası silahlı qüvvələrinin fəaliyyəti İran İslam Respublikasının müstəqilliyini, ərazi bütövlüyünü və dövlət quruluşunu, Xəzər dənizinin, fars körfəzinin ərazi sularında, sərhəd çaylarında milli maraqlarını qorumaq, habelə müsəlman xalqlarına, məzlumların tərəfində yer almağa, İslam dininə mənsubluğundan asılı olmayaraq, onların xahişi ilə ərazilərini təcavüzkarların hücumundan və ya düşmən qoşunların ələ keçirməsindən (işğalından) qorumaq üçün hərbi yardım göstərmək məqsədi daşıyır” [Məlikov, 2020, s.59].

Müasir şəraitdə İran İslam Respublikası, aktiv regional güc olaraq, öz siyasətini hayata keçirərkən müharibələrin xüsusiyyətləri və silahlı qüvvələrindən istifadə prinsipləri, ehtimal olunan düşmənlərin və müttəfiqlərin seçimi barədə öz mülahizələrinə əsaslanır.

Şah hakimiyyəti devirildikdən dərhal sonra ruhanilər “İslam təlimləri” əsasında “İran İslam Respublikasının milli təhlükəsizlik doktrinası"nı hazırlayıb parlamentdə qəbul etdilər.

Müxtəlif növ və hissələrdən ibarət olan silahlı qüvvələr bütün hərbi məsələlərdə ən yüksək gücə sahib olan İran İslam Respublikasının ali dövlət vəzifəsi sayılan İran İslam Respublikasının Ali Dini Lideri (*İslam İnqilabının Ali Rəhbəri, fəqih va ya rəsmi olaraq Ali Rəhbərlik Orqanı*) Seyyid Əli Hüseyni Xamneyinin tabeçiliyindədir.

İran İslam Respublikası Silahlı Qüvvələrinin fəaliyyətini müəyyənləşdirən əsas prinsiplər aşağıdakılardır:

- Allaha gedən yolda peyğəmbərliyə inam və İslam dininə mənsub olması;
- İslam dövlətinin, o cümlədən, silahlı qüvvələrin taleyinin həllində və idarə olunmasında “vilayəti fəqih” (*imamiyyə məzhəbində, onikinci imamın qeybətindən sonra hər əsrdə cəmiyyətə rəhbərlik etmək, bütün şərtlərə və tələblərə cavab verə biləcək fəqih və ya fəqihlərin öhdəsinə düşür. Müsəlmanlar bütün siyasi, ictimai və həyati işlərdə onlara təqlid etməlidirlər. Bu ümumilikdə “vilayəti-fəqih” adlanır. Qısa olaraq imamiyyə məzhəbinin inancına əsasən İmam Zamanın qaib olduğu dövrdə fəqihlər məsum imamların hakimiyyətinin davamçısı hesab olunurlar*) prinsipi;
- Silahlı qüvvələrin bütün qollarına və bölmələrinə şamil edilən vahid komandanlıq prinsipi;
- Silahlı qüvvələrin şəxsi heyətinə hər hansı siyasi təşkilatlara və partiyalara üzv olmağın qadağan edilməsi prinsipi;
- İntizam- tabeliyində olanlar tərəfindən əmr və göstərişlərin tam və qeyd-şərtsiz yerinə yetirilməsini, caza və mükafatlandırma sisteminin yaradılmasını təmin edən prinsip;
- Xalq və silahlı qüvvələr arasında daimi əlaqəni yaradan fikirlər;
- Özünü təmin etmək, yəni təşkilati-ştat strukturu, kəşfiyyat, maddi təminat, tədris prosesinin təşkili kimi məsələlərdə özünəinam;

- Sadəlik, yəni planlaşdırmada və qərargah işində, direktiv və sərəncamların hazırlanmasında çətinliyin olmaması;
- Düşməni cəsarətli və qətiyyətli bir hücumla məğlub etmək üçün kifayət qədər döyüş gücü, manevr qabiliyyəti və döyüş hazırlığı;
- Müdafiə xarakteri- hər hansı bir düşmən hücumunun dəf edilməsini, ardınca isə təcavüzkarın məğlubiyyətini, həmçinin müsəlman və məzlum xalqlara dəstək və onların müdafiəsini nəzərdə tutan prinsip [Məlikov, 2024, səh.20].

İran İslam Respublikasının silahlı qüvvələrinin Ali Baş Komandanı, İran Silahlı Qüvvələrinə rəhbərliyi, İran ordusunun və İslam İnqilabı Keşikçilər Korpusunun birləşmiş qərargahlarına, Silahlı qüvvələrin qoşun növlü qərargahlarına, hüquq mühafizə qüvvələrinin və müvafiq ərazi oqranlarının qərargahları tərəfindən, hər bir strukturda öz adı, təyinatı, tərkibi, funksiyaları və tapşırıqları olmaqla, sülh və müharibə dövründə "İran Silahlı Qüvvələrinin Baş Qərargahı" vasitəsilə həyata keçirir.

Silahlı qüvvələrin baş qərargahı İran İslam Respublikası Silahlı Qüvvələrinin bütün növ komponentləri üçün ən yüksək mərkəzi idarəetmə orqanı hesab olunur [Вооружённые силы Ирана, 2021, s.10].

**4.İran İslam Respublikası silahlı qüvvələrinin strukturu, say tərkibi və döyüş gücü**

İran İslam Respublikası silahlı qüvvələrinin təşkilati strukturunun xüsusiyyəti onların tərkibində dörd müstəqil komponentin - həm sülh, həm də müharibə dövründə- müvafiq komanda və idarəetmə sisteminə malik hərbi silahlı birləşmələrin olmasıdır. Həmin silahlı birləşmələrə daxildir:

- İran İslam Respublikası ordusu *(Ərteşe Comhuriye Eslamiye İran*);
- İslam İnqilabı keşikçilər korpusu (bundan sonra İİKK (*Sepahe Pasdarane Enqelabe Eslami*);
- İran İslam Respublikası intizam qüvvələri (*Niruhaye Entezamiye Comhuriye Eslamiye İran*);
- Müdafiə və silahlı qüvvələrə dəstək nazirliyi (*Vezarete Defa və Poştibaniye Niruhaye Mosəlləh*) [Сажин, 2017, 83-109].




**Şəkil 2.** *İran İslam Respublikası silahli qüvvələrinin struktur quruluşu.*

Yuxarıda adı göstərilən dörd komponentdən İran İslam Respublikası ordusunun və İİKK-nun hər birinə aid quru qoşunları, hərbi hava və hərbi dəniz qüvvələri mövcuddur.

Son dövrlərdə ordu və keşikçilər korpusu strukturlarının ölkənin silahlı qüvvələri daxilində ümumi tabeçilik sistemi ilə tədricən yaxınlaşması tendensiyası müşahidə olunur [İİR Silahlı Qüvvələri ilə tanışlıq, s.2].




**Şəkil 3.** *İran İslam Respublikası silahlı qüvvələrinin baş qərargahının ştat strukturunun quruluşu* [İİR Silahlı Qüvvələrinin quruluşu və komandanlıq heyətinin tərkibi, 2017, s.2; Стрельцов, 2018, s.138].

(1) ارتش جمهوری اسلامی ایران
(2) سپاه پاسداران انقلاب اسلامی
(3) نیروی انتظامی جمهوری اسلامی
(4) وزارت دفاع و پشتیبانی نیروهای مسلح

## 5.Silahlı Qüvvələrin Ali Baş Komandanı

İran İslam Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı (*Fərmandehiye Kolle Qovaye Comhuriye İslamiye İran*), qısaldılmış şəkildə Baş Komandan olaraq adlandırılan bir tituldur. 1980-ci ildən İran İslam Respublikasının Silahlı Qüvvələri İran İslam Respublikasının Konstitusiyasına əsasən vahid komandan tərəfindən idarə olunur.

İran İslam Respublikası Konstitusiyasının 110-cu maddəsinə əsasən, müharibənin, sülhün elan olunması və qüvvələrin səfərbər edilməsi, habelə Silahlı Qüvvələrin Baş Qərargah rəisinin, Qüvvələrin Baş Komandanlarının, Ordunun, İslam İnqilabı Keşikçilər Korpusunun və Nizam- intizam qüvvələrinin baş komandanlarının təyin edilməsi, vəzifədən azad edilməsi və ya istefasının qəbul edilməsi Silahlı Qüvvələrin Ali Baş Komandanının səlahiyyətinə daxildir.

İran İslam Respublikası Silahlı Qüvvələrinin hazırkı Ali Baş Komandanı (Ali Dini Lider) Ayətullah Seyyid Əli Xamneyidir [Бондарь & Сажин, 2014, s.215].

### 6.Silahlı Qüvvələrin Baş Qərargahı

İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahı (*Setade Kolle Niruhaye Mosallahe Comhuriye Eslamiye İran*) İran İslam Respublikası Ordusu və İslam İnqilabı Keşikçilari Korpusu, həmçinin İran İslam Respublikası İntizam Qüvvələri, Müdafiə və Silahlı Qüvvələrə Dəstək nazirliyinin fəaliyyətlərinin koordinasiyasına cavabdeh olan İran Silahlı Qüvvələrinin ən yüksək hərbi qurumudur.

Baş Qərargah 1988-ci ilin iyun ayında əməkdaşlığı genişləndirmək və silahlı qüvvələrin tərkib hissəsi olan qurumlar arasındakı rəqabəti tarazlaşdırmaq məqsədi ilə yaradılıb və birbaşa İranın Ali Dini rəhbəri tərəfindən idarə olunur.

Bundan başqa, İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahının təyinatı Silahlı Qüvvələrdə siyasət, monitorinq və fəaliyyətlərin koordinasiyasını həyata keçirməkdən ibarətdir. İran İslam Respublikası Ordusu, İslam İnqilabı Keşikçilər Korpusu, İran İslam Respublikası İntizam Qüvvələri İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargahına tabedirlər.

Bununla yanaşı Müdafiə və Silahlı Qüvvələrə Dəstək Nazirliyi isə İran İslam Respublikası Silahlı Qüvvələrinin planlanmasına, maddi-texniki təminatına və maliyyələşdirilməsinə cavabdehdir və İran İslam Respublikası Prezidentinin yanında icra hakimiyyətinin tərkib hissəsidir.

Silahlı Qüvvələrin Baş Qərargahı, komandanlığın daha böyük birliyini təmin etmək məqsədi ilə Nizami Silahlı Qüvvələrin birləşmələrini və İslam İnqilabı Keşikçilər Korpusunun yuxarı eşelonlarını birləşdirmişdir [Iran Military Power, 2019, s.25; Бондарь & Сажин, 2014, s.217].

### 7.İran İslam Respublikası Ordusu

İran İslam Respublikası Ordusu (*Ərtəşe Comhuriye İslamiye İran*) qısaldılmış şəkildə (AJA) İran İslam Respublikası Silahlı Qüvvələrinin əsas hissəsini təşkil edir. İran İslam Respublikasının Konstitusiyasının 143-cü və 144-cü maddələrinə müvafiq olaraq "İran İslam Respublikası Ordusunun ən asas vəzifəsi ölkənin müstəqilliyini, ərazi bütövlüyünü və İslam Respublika quruluşunu qorumaqdan ibarətdir". İran İslam Respublikasının Konstitusiyasına əsasən, İran İslam Respublikası Ordusu İslami, dini və xalq ordusu olmalı və İslam İnqilabı dəyərlərinə bağlı, özünü vətən naminə qurban verməyə hazır layiqli şəxsləri orduda rəhbər vəzifələrdəki xidmətə qəbul etməlidir.

İran İslam Respublikasının Ordusu təşkilati olaraq dörd qoşun növündən QQ, HDQ, HHQ və HHMQ qüvvələrindən ibarətdir. İran İslam Respublikası Ordusu Silahlı Qüvvələrin tərkib hissəsi kimi müstəqil şəkildə və İslam İnqilabı Keşikçilər Korpusu və İran İslam Respublikası İntizam Qüvvələri ilə birgə istənilən xarici təcavüzün dəf edilməsi üzrə tapşırıqları yerinə yetirməyə qadirdir.

İran İslam Respublikası Ordusunun say tərkibi yeddi yüz min (*yarısı- çağırışçı kontingentindən və peşəkar hərbçilərdən təşkil olunan nizami heyətdən, yarısı isə ehtiyatdan çağırılan hərbi qulluqçulardan*) nəfərdən ibarətdir.

İran Ordusu birgə qərargah vasitəsilə İran Ordusunun Baş Komandanı tərəfindən idarə olunur. Ordunun Birləşmiş Qərargahı (*Strateji Komandanlığı*) sülh dövründə Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri və Hava Hücumundan Müdafiə Qüvvələrinin vasitəsilə, müharibə dövründə isə əməliyyatların başlanması ilə qoşunların tam döyüş hazırlığına gətirilməklə müvafiq əməliyyat bölgələrində fəaliyyətə başlayan beş operativ komandanlığın (OK) qərargahları vasitəsilə İran Ordusunun qoşunlarına birbaşa nəzarəti həyata keçirir.

İran İslam Respublikası Ordusunun baş komandanı Silahlı Qüvvələrin Ali Baş Komandanına tabedir və İran Ordusunun qoşun növü komandirləri üçün birbaşa rəisdir [İran İslam Respublikasının Konstitusiyası 1989-cu il nəşri, s.49; Вооружённые силы Ирана, 2021, 10-17].

**8.İslam İnqilabı Keşikçilər Korpusu (SEPAH)**

İslam İnqilabı Keşikçilər Korpusu (*Sepahe Pasdarane Enqelabe Eslami*) qısaldılmış şəkildə (İİKK və ya SEPAH) İran İslam Respublikası Ordusu və İntizam Qüvvələri ilə birlikdə İran Silahlı Qüvvələrinin əsas tərkib hissələrindən birini təşkil edir. İslam İnqilabı Keşikçiləri Korpusu 1979-cu il İslam İnqilabından sonra İran İslam Respublikasının rəhbəri Seyyid Ruhullah Xomeyninin əmr və göstərişi ilə 22 aprel 1979-cu ildə yaradılmışdır. Bu korpus İran İslam Respublikası silahlı qüvvələrinin əsas tərkib hissəsi hesab olunur.

İranın sərhədlərini və daxili nizamını qoruyan İran İslam Respublikasının ordusundan fərqli olaraq, İran İslam Respublikasının Konstitusiyasının 150-ci maddəsinə əsasən İslam İnqilabı Keşikçiləri Korpusu İran İslam İnqilabını və onun nəaliyyətlərini qorumaq üçün yaradılıb və siyasi sistemi qorumağa cavabdehdir [İran İslam Respublikasının Konstitusiyası 1989-cu il nəşri, s.50].

İslam İnqilabı Keşikçiləri Korpusu İran İslam Respublikasının hökumətini qorumaqla yanaşı, ölkəyə qarşı yönələn xarici müdaxilələrin, hərbi çevrilişlərin və ya “düşmən hərəkətlərin” qarşısının alınmasında mühüm rol oynayır.

İİKK-nun digər təyinatı mövcud Konstitusiya çərçivəsində dövlətin müstəqilliyinin, ərazi bütövlüyünün və İslam Respublikası quruluşunun qorunmasından, İslam dininin İran İslam Respublikasında yayılmasında orduya köməklik göstərməkdən, dünyada müsəlman məzlumlara yardım etməkdən, İran İslam Respublikası daxilində İslam İnqilabına qarşı çıxan təxribatçı ünsürlərlə mübarizə aparmaqdan, təbii fəlakətlər zamanı xilasetmə əməliyyatlarını həyata keçirməkdən, ictimai asayişi mühafizə edən qüvvələrə, o cümlədən dövlət qurumlarının, dini və siyasi xadimlərin təhlükəsizliyinin təmin edilməsində, kəşfiyyat və əks-kəşfiyyat orqanlarına köməklik göstərməkdən, Ordu birləşmələri ilə qarşılıqlı əlaqədə İran İslam Respublikasının Silahlı Qüvvələrini gücləndirməkdən, “Bəsic” yarımhərbiləşdirilmiş xalq könüllülərinin yaradılmasından və hərbi hazırlığını həyata keçirməkdən ibarətdir.

Digər tərəfdən, İİKK İran iqtisadiyyatının böyük seqmentlərinə nəzarət edərək ölkənin iqtisadi həyatında mühüm rol oynayır. Bu baxımdan İranın siyasi və dini hakimiyyəti Keşikçilər Korpusunun rəhbərliyinin mövqeyi ilə hesablaşmaq məcburiyyətindədir.

İslam İnqilabı Keşikçilər Korpusu Quru Qoşunları, Hərbi Dəniz Qüvvələri, Aerokosmik Qüvvələri, “Qüds” xüsusi təyinatlı qüvvələri və “Bəsic” xalq könüllüləri müqavimət qüvvələrindən ibarətdir.

İslam İnqilabı Keşikçilər Korpusu, İran İslam Respublikası Silahlı Qüvvələrinin ən döyüş qabiliyyətli və ideoloji cəhətdən məharətli və bacarıqlı bir hissəsidir, teokratik hökumətin etibarlı müdafiəçisi və Silahlı Qüvvələrdəki xarici təsirlərə qarşı tarazlıq yaradan güc strukturudur.

İranın ən nüfuzlu dövlət orqanları rəhbərlərinin və din xadimlərinin sözlərinə görə, “İslam İnqilabı Keşikçilər Korpusu- İslam İnqilabının körpəsidir və geniş dini, siyasi və hərbi səlahiyyətlərə malik olan yeganə qurumdur”.

İİKK-na birbaşa rəhbərliyi və öz fəaliyyətində SEPAH-ın Ali Şurasına, müavinlər aparatına və İİKK-nun Birgə Qərargahına (*strateji komandanlıq*) göstərişlər Ali Baş Komandan tərəfindən həyata keçirilir. İİKK-nun şəxsi heyəti altı yüz min nəfərdən ibarətdir [Ганиев, Задонский & Карякин, 2019; Аверин, 2020].

**9.İran İslam Respublikası İntizam Baş Komandanlığı**

İran İslam Respublikası İntizam Baş Komandanlığı (*Fermandehiye Entezamiye Comhuriye Eslamiye İran*) qısaldılmış şəkildə (FƏRACA) “Bəsic” müqavimət qüvvələri ilə birlikdə İran Silahlı Qüvvələrinin əsas ehtiyatı hesab olunur.

İran İslam Respublikası İntizam Komandanlığının Silahlı Qüvvələrin miqyasında yeri və rolu, ilk növbədə, İntizam Komandanlığının şəxsi heyətinə qoyulan yüksək tələblərlə,

onların üzərinə qoyulan konkret vəzifələr, eləcə də mənəvi-siyasi ruh yüksəkliyi, İslam İnqilabı və ümumən İslam ideyalarına bağlılıqları ilə müəyyən edilir.

İran İslam Respublikası İntizam Komandanlığı ölkənin daxili təhlükəsizliyini təmin etmək və qorumaq vəzifəsini həyata keçirir.

İran İslam Respublikası İntizam Komandanlığının əsas vəzifələri aşağıdakılardır:

- İran İslam Respublikası dövlət sərhədlərinin mühafizəsi;
- Ölkənin sərhədləri üzərində nəzarəti həyata keçirmək, sərhəd protokol və sazişlərini hayata keçirmək, habelə dəniz sahəsi sərhədlərini və azad iqtisadi zonalarda dövlətin maraqlarını qorumaq;
- Sərhəd postlarında və keçidlərdə viza rejiminin təmin edilməsi, İran vətəndaşlarının və əcnəbilərin ölkəyə giriş-çıxışına, habelə sonuncuların İran İslam Respublikasının ərazisində qalmalarına nəzarət;
- Dövlət orqanlarının vəzifəli şəxslərinin və ölkənin dövlət sektorunun idarə və təşkilatlarının, müəssisələrinin təhlükəsizliyinin təmin edilməsi;
- Təhlükə altında olan dövrdə və müharibə dövründə düşmənin hava və dəniz desantlarına, habelə onun kəşfiyyat-diversiya və agentura şəbəkəsinə qarşı mübarizə;
- İran İslam Respublikasında fəaliyyət göstərən siyasi partiyaların və ictimai təşkilatların, xarici dövlətlərin nümayəndəliklərinin və ölkədə yaşayan əcnəbilərin ölkədəki fəaliyyətinə nəzarət;
- "İslama yad" Qərb ideologiyasının təzahürlərinə qarşı mübarizə, "İslam əxlaqı"na riayət olunmasına nəzarət, habelə sülh dövründə qeyri-qanuni silahlı birləşmələrlə mübarizə;
- Hökumət əleyhinə etirazların yatırılması;
- Daxili spesifik kəşfiyyatın aparılması (*cinayat elementləri ilə mübarizə*) və xarici hərbi-siyasi kəşfiyyat;
- Tabii fəlakətlərin və texnogen falakətlərin nəticələrinin aradan qaldırılmasında iştirak;
- Narkotik vasitələrin qanunsuz dövriyyəsi və qaçaqmalçılığı ilə mübarizə;
- Gənclərin hərbi xidmətə çağırılmasının təmin edilməsi;
- İnterpolla əməkdaşlıq;
- Zəruri hallarda ölkənin silahlı qüvvələrinin digər bölmələri ilə qarşılıqlı əlaqə.

İran İslam Respublikası İntizam Komandanlığının başında İntizam Komandanlığının qərargah rəisinin hesabat verdiyi İran İslam Respublikası İntizam Komandanlığının komandiri dayanır. Komandan özü İran İslam Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinə (*əməliyyat baxımından*), daxili işlər nazirinə (*inzibati olaraq, habelə əməliyyat-axtarış tədbirləri zamanı*) və Ali Baş Komandanına hesabat verir.

İran İslam Respublikası İntizam Komandanlığının rəhbəri, birləşmələrin və hissələrin döyüş qabiliyyətini və döyüş hazırlığının qorunmasını, tabeliyində olan şəxsi heyətin yüksək mənəvi-siyasi ruhunun tərbiyasini, qoşunların operativ və döyüş istifadəsi planlarının hazırlanmasını və hayata keçirilməsini, əməliyyat və döyüş hazırlığının təşkili və keçirilməsini, şəxsi heyətin psixoloji hazırlığını və dini-ideoloji materiallarının hazırlanmasını, habelə İran İslam Respublikası İntizam Komandanlığının hərbi təhsil müəssisələrində kadr hazırlığını həyata keçirmək üçün Ali Baş Komandan qarşısında cavabdehlik daşıyır.

İran İslam Respublikasi İntizam Komandanlığının rəhbəri həmçinin tabeçiliyində olan birləşmə və hissələrin maddi-texniki təminatını təşkil edir [Ганиев, Задонский & Карякин, 2019, s.489-493].

**10.İran İslam Respublikasının Müdafiə və Silahlı Qüvvələrə dəstək nazirliyi**

İran İslam Respublikası Müdafiə və Silahlı Qüvvələrə dəstək nazirliyi (*Vezarəte Defa və Poştibaniye Niruhaye Mosəlləh*) qısaldılmış şəkildə (*VDCA*) İran hökumətinin İran silahlı qüvvələrinin müdafiə potensialının planlaşdırılması, koordinasiya edilməsi, dəstəklənməsi və genişləndirilməsindən məsul olan nazirliklərindən biri olub Silahlı Qüvvələrin tərkib hissəsidir.

İslam Respublikası Müdafiə və Silahlı Qüvvələrə dəstək nazirliyinin vəzifələrinə mümkün təhdidlərlə mübarizə üçün müdafiə qüvvələrinin təchiz edilməsi də daxildir. 1989-cu ildə İran hökuməti tərəfindən İran İslam Respublikasının müdafiə sənayesi üçün vahid struktur yaratmaq məqsədi ilə İran İslam Respublikası Müdafiə və Silahlı Qüvvələrə dəstək nazirliyi yaradılmışdır.

İran İslam Respublikası Müdafiə Sənayesi Təşkilatı (*DIO*), İran İslam Respublikası Aerokosmik Sənaye Təşkilatı (*AIO*) və İran İslam Respublikası Müdafiə Texnologiyaları və Elmi Araşdırmalar Mərkəzi (*DTSRC*) İran İslam Respublikası Müdafiə və Silahlı Qüvvələrə dəstək nazirliyinə tabedir və bu da adıçəkilən quruma İranın ballistik raket inkişafı proqramına operativ nəzarət etmək imkanını verir

İran İslam Respublikası Müdafiə və Silahlı Qüvvələrə dəstək nazirliyinin müxtəlif təşkilatlara satınalma fəaliyyətləri ABŞ-nin bir sıra davam edən sanksiyaları ilə nəticələnib. Bundan başqa İran İslam Respublikası Müdafiə vә Silahlı Qüvvələrə dəstək nazirliyinin adından fəaliyyət göstərən şirkət və fiziki şəxslərə qarşı ABŞ tərəfindən 21.03.2023-cü ildə elan edilmiş sanksiyaların yeni mərhələsinə start verilib [Iran Military Power, 2019, s.25].

**11.Nəticə**

İran İslam Respublikası Silahlı Qüvvələrinin bütün idarəetmə qolları vahid bir idarəetmə mərkəzində Ali Rəhbərin aparatında yerləşir və o, tam səlahiyyətə malik olmaqla, idarə etdiyi Milli Təhlükəsizlik Şurası vasitəsilə İran Silahlı Qüvvələrinin fəaliyyətinə rəhbərlik edir. Bu da nəticədə hakim elitaya həm Silahlı Qüvvələr daxilində baş verən bütün proseslərə, həm də onların dövlətin digər strukturları ilə münasibətlərinə tam nəzarət etməyə imkan verir.

Bundan başqa Silahlı Qüvvələrin müxtəlif komponentləri İİR Ordusu, İKK, İİRİK arasında mövcud olan fikir ayrılıqları və ziddiyyətlər rəhbərlik tərəfindən "böl və hökmranlıq et" prinsipi ilə güc strukturlarına təsirini və nəzarətini gücləndirmək üçün məharətlə istifadə edilmişdir.

Bu gün qeyd etmək lazımdır ki, İran Silahlı Qüvvələri İslam Respublikasının ideoloji dövlət quruluşuna möhkəm uyğunlaşıb və onun ən vacib və etibarlı elementinə çevrilib, İranın hazırkı siyasətinin həyata keçirilməsində hakimiyyətin iradəsini sözsüz və qeyd şərtsiz yerinə yetirir.

İran İslam Respublikası Silahlı Qüvvələrində üç səviyyədə fəaliyyət göstərən effektiv hərbi komandanlıq və nəzarət sistemi yaradılmışdır: ali (*strateji*), operativ və taktiki. Silahlı Qüvvələrin idarəedilməsinin iki istiqaməti çox dəqiq və şəffaf ayırd edilmişdir: inzibati və əməliyyat. İnzibati qaydada qoşunlara nəzarət və iadrəetmə İran İslam Respublikası Müdafiə və Silahlı Qüvvələrə Dəstək Nazirliyi tərəfindən həyata keçirilir. Əməliyyat qaydasında qoşunlara nəzarət və idarəetmə isə Ali Baş Komandanın Qərargahı, İran İslam Respublikası Ordusu və İslam İnqilabı Keşikçilər Korpusunun birgə qərargahı, Silahlı Qüvvələrin Qoşun növü qərargahları, həmçinin korpus, diviziya və briqadaların qərargahları tərəfindən həyata keçirilir.

Qeyd etmək lazımdır ki, yarandığı gündən qərb dövlətləri və xüsusən Amerika Birləşmiş Ştatları ilə münasibətləri soyuq olan İran İslam Respublikası hərbi-texniki parkını yeniləmək əzmindədir. Bu səbəbdən də İslam Respublikasının aviasiyası və zirehli texnika parkı tam müasir silah və texnika ilə təchiz edilməyib lakin bunun üçün işlər aparır. İran bu boşluğu qismən embarqoları yaran ölkələr və əsasən də yerli hərbi sənayenin son

nəaliyyətləri və inkişafı vasitəsilə doldurmağa çalışır. Məhz sanksiyalar və embarqolar sayəsində İranın yerli hərbi sənayesi silah və texnika istehsalına təkan vermişdir.

BMT Təhlükəsizlik Şurasının sanksiyalarını nəzərə alan İran rəhbərliyi səylərini milli elmi tədqiqat işlərinin aparılmasına, əvvəlki illərdə xaricdən alınmış silahların modernləşdirilməsinə və döyüş hazırlığının saxlanmasına və milli hərbi sənayenin yaradılmasına yönəltməyə məcbur olub.

## 12.REFERENCES


1. Ganiyev, T., Zadonsky, S., & Karyakin, V. (2019). *The military power of the Islamic Republic of Iran.* Volume 1 (pp. 296–524). Moscow: IBV. (in Russian)
2. *Introduction to the Armed Forces of the Islamic Republic of Iran.* https://gama.ir/dars/detail/1497/?id=1497 (in Persian)
3. Composition of Senior Military Commanders by Province and Ethnicity. (2017, March 4). https://www.rojpress.wordpress.com/2017/03/04/1-463/ (in Persian)
4. Constitution of the Islamic Republic of Iran – Revised in 1989. (1989). https://www.wipo.int/wipolex/ru/text/323747 (in Persian)
5. *Iran military power: Major military and security institutions.* (2019). (pp. 24–29). (in English)
6. Bondar, Y. M., & Sajin, S. M. (2014). *The military power of the Islamic Republic of Iran* (pp. 202–215). Moscow: Moscow State University. (in Russian)
7. Sajin, V. I. (1999). The military power of Iran in the context of regional and global politics. In *The Middle East and Modernity: Collection of Articles* (Issue 7, pp. 283–296). Moscow. (in Russian)
8. Sajin, V. I. (2017). The Islamic Revolutionary Guard Corps of Iran – A State Within a State. *Contours of Global Transformations: Politics, Economics, Law, 10*(3), 83–109. (in Russian)
9. Streltsov, D. V. (Ed.). (2018). *Armies in the Modern East: Scholarly Edition* (pp. 126–166). Moscow: Aspect Press. (in Russian)
10. Armed Forces of Iran. (2021). *Foreign Military Review,* (No. 04), 10–17. https://zvo.ric.mil.ru/upload/site230/80LL017vTD.pdf (in Russian)
11. Averin, Y. (2020). Islamic Revolutionary Guard Corps of the Armed Forces of Iran. *Foreign Military Review,* (No. 10), 36–40. https://zvo.ric.mil.ru/upload/site230/sm6bxsWeg.pdf (in Russian)
12. Malikov, A. (2024). *Texts about military forces.* ResearchGate scientific database, January 22, 2024, pp.1–22. http://dx.doi.org/10.13140/RG.2.2.20307.96801 (in Azerbaijani)
13. Malikov, A. (2020). *Constitution of the Islamic Republic of Iran.* Baku, 78 p. (in Azerbaijani)


## ƏDƏBİYYAT


1. Ганиев, Т., Задонский, С., & Карякин, В. (2019). *Военная мощь Исламской Республики Иран.* Том 1 (сс. 296–524). Москва: ИБВ.

۲. آشنایی با نیروهای مسلح و خدمت مقدس سربازی
*İİR Silahlı Qüvvələri ilə tanışlıq.* https://gama.ir/dars/detail/1497/?id=1497

۳. ترکیب استانی و قومی فرماندهان ارشد نیروهای مسلح
(2017, Mart 4). *İİR Silahlı Qüvvələrinin quruluşu və komandanlıq heyətinin tərkibi.* https://www.rojpress.wordpress.com/2017/03/04/1-463/

٤. قانون اساسی جمهوری اسلامی ایران - بازنگری ۱۳٦۸ خورشیدی (1989).
[İran İslam Respublikasının Konstitusiyası 1989-cu il nəşri]. https://www.wipo.int/wipolex/ru/text/323747

**5.** *Iran Military Power: Major Military and Security Institutions.* (2019). (pp. 24–29).
**6.** Бондарь, Ю. М., & Сажин, С. М. (2014). *Военная мощь Исламской Республики Иран* (сс. 202–215). Москва: МГУ.
**7.** Сажин, В. И. (1999). Военная мощь Ирана в контексте региональной и глобальной политики. В *Ближний Восток и современность: Сб. статей* (Вып. 7, сс. 283–296). Москва.
**8.** Сажин, В. И. (2017). Корпус стражей исламской революции Ирана – государство в государстве. *Контуры глобальных трансформаций: политика, экономика, право, 10*(3), 83–109.
**9.** Стрельцов, Д. В. (Ред.). (2018). *Армии на современном Востоке: Научное издание* (сс. 126–166). Москва: Аспект Пресс.
**10.** Вооружённые силы Ирана. (2021). *Зарубежное военное обозрение*, (№ 04), 10–17. https://zvo.ric.mil.ru/upload/site230/80LL017vTD.pdf
**11.** Аверин, Ю. (2020). Корпус Стражей Исламской Революции Вооружённых Сил Ирана. *Зарубежное военное обозрение*, (№ 10), 36–40. https://zvo.ric.mil.ru/upload/site230/sm6bxsWeg.pdf
**12.** Məlikov, Ə. (2024). *Hərbi qüvvələr haqqında mətnlər.* ResearchGate elmi bazası, 22 yanvar 2024, səh. 1-22. http://dx.doi.org/10.13140/RG.2.2.20307.96801
**13.** Məlikov, Ə. (2020). *İran İslam Respublikasının Konstitusiyası*. Bakı, 78 s.